**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№303/2** **13 avqust 2018-ci il**

**“Azərbaycan Respublikası Auditorlar Palatasının Keyfiyyətə nəzarət üzrə Apellyasiya Komissiyasının Əsasnaməsi” barədə**

Dünya Bankının “Şərq tərəfdaşlığı ölkələrində audit və hesabatlılığın gücləndirilməsi proqramı” (STAREP) çərçivəsində “Auditin keyfiyyətinə nəzarət sistemlərinin inkişaf etdirilməsi: tendensiyalar və imkanlar” mövzusunda 2018-ci il 26-27 aprel tarixlərində Vyana şəhərində keçirilmiş seminarda əldə olunan qabaqcıl beynəlxalq təcrübənin ölkəmizdə tətbiqinə nail olunması və Azərbaycan Respublikası Auditorlar Palatası sədrinin “Auditin keyfiyyətinə nəzarətin təkmilləşdirilməsi sahəsində qabaqcıl beynəlxalq təcrübənin tətbiqi barədə” 2018-ci il 11 may tarixli 1/21 nömrəli və “Keyfiyyətə nəzarət üzrə Apellyasiya Komissiyasının yaradılması barədə” 2018-ci il 14 iyun tarixli 1/33 nömrəli sərəncamlarının icrasını təmin etmək məqsədilə hazırlanmış Azərbaycan Respublikası Auditorlar Palatasının Keyfiyyətə nəzarət üzrə Apellyasiya Komissiyasının Əsasnaməsinin layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Azərbaycan Respublikası Auditorlar Palatasının Keyfiyyətə nəzarət üzrə Apellyasiya Komissiyasının Əsasnaməsi” təsdiq edilsin (əlavə olunur).
2. Keyfiyyətə nəzarət üzrə Apellyasiya Komissiyasının sədrinə (İ.Bayramov) tapşırılsın ki, Komissiyaya daxil olan müraciətlər Əsasnamənin müddəalarına uyğun şəkildə baxılmaqla obyektiv və şəffaf araşdırılsın.
3. Sədrin müşavirinə (F.Qarayev), Beynəlxalq əlaqələr şöbəsinə (F.Kamalova) tapşırılsın ki, iki həftə müddətində bu qərarın və Əsasnamənin mətnlərinin Azərbaycan, ingilis və rus dillərində Palatanın internet səhifəsində yerləşdirilməsini təmin etsinlər.

**Şuranın sədri** **Vahid Novruzov**